1_Layout 1 28.11.2018 18:54 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 23 (539)

30 noyabr 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## AZƏRBAYCAN ETİBARLI TƏRƏFDAŞDIR: PREZİDENT İLHAM ƏLİYEVİN BELARUS VƏ TÜRKMƏNİSTANA RƏSMİ SƏFƏRLƏRİ BUNU BİR DAHA TƏSDİQ EDİR

***Sizlərə ixtisarla təqdim etdiyimiz jurnalist Rəşad Cəfərlinin "Azərbaycan" qəzetində dərc olunan bu məqaləsi olduqca maraqlı məqamlara aydınlıq gətirir.***



İnkişafı və müstəqil siyasəti ilə fərqlənən, Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanın bütün sahələr üzrə əldə etdiyi uğurlar olduqca sanballı və çoxşaxəlidir. Bu, cəmi 26 illik müstəqillik tarixi olan respublikanın beynəlxalq münasibətlər sistemində böyük nüfuz və dərin ehtiram qazanmasını, söz sahibi olan dövlətlərlə bir sırada dayanmasını təmin edib.

Başqa bir reallıq isə Azərbaycanın uğurlarının bütün dünyada etiraf edilməsi, ölkəmizlə əməkdaşlığın dərinləşdirilməsi, qazandığımız təcrübənin öyrənilməsi barədə təkliflərin səsləndirilməsidir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti ilə görüşən xarici ölkələrin rəsmiləri - dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri Cənubi Qafqazın lideri Azərbaycanla əməkdaşlığa böyük önəm verdiklərini, münasibətləri dərinləşdirməkdə maraqlı olduqlarını bəyan edirlər. Bu fikirlər Prezident İlham Əliyevin Belarus və Türkmənistana rəsmi səfərləri zamanı keçirdiyi görüşlərdə bir daha eşidildi.

Ümumiyyətlə, MDB dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığı gücləndirmək, keçmiş sovetlər birliyi dövründən mövcud olan çoxşaxəli əlaqələri müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirmək rəsmi Bakının xarici siyasətində vacib məsələlərdən biri kimi nəzərdən keçirilir. Ulu Öndər Heydər Əliyevin xarici siyasətdə müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edən Prezident İlham Əliyev ötən 15 ildə postsovet respublikaları ilə münasibətlərə xüsusi önəm verib. Dövlət başçısının MDB-nin iqtisadi potensialına görə seçilən respublikalarından sayılan Belarusa son rəsmi səfəri bu nöqteyi-nəzərdən diqqəti cəlb edir. Bu səfər ikitərəfli əlaqələrə əlavə impulslar vermək, genişmiqyaslı əməkdaşlıq üçün mövcud potensialdan hərtərəfli yararlanmaq baxımından vacib əhəmiyyət kəsb edirdi.

Amma ən əsası ondan ibarətdir ki, Azərbaycan-Belarus münasibətləri bu gün özünün ən yüksək zirvəsinə çataraq strateji tərəfdaşlıq mahiyyəti daşıyır. Bir-birindən kifayət qədər coğrafi uzaqlıqda, ayrı-ayrı mədəniyyətlərin daşıyıcıları olmalarına baxmayaraq, Azərbaycan-Belarus bir-birilərinin etibarlı tərəfdaşı və yaxın dostlarıdır. Məlum olduğu kimi, Belarus Azərbaycanın üzv olmadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Lakin rəsmi Minsk tərəfdaşlığa sadiq qalaraq Azərbaycanın iştirak etmədiyi bu təşkilatda ölkəmizin mövqelərini qətiyyətlə müdafiə edib, KTMT-də, Avrasiya İttifaqı çərçivəsində Ermənistanın istədiyi addımı atmasına imkan verməyib. Minskdə keçirilən birgə mətbuat konfransında Prezident İlham Əliyev bu barədə deyib: "Əgər hər hansı beynəlxalq təşkilatda Belarusla, yaxud hər hansı rəhbər orqanlara namizədliyi irəli sürülən bu ölkədən namizədlə əlaqədar məsələ qaldırılırsa, Azərbaycan qeyd-şərtsiz dəstək göstərir. Eyni münasibəti biz Belarus tərəfdən də görürük. Bu, bizim münasibətlərimizin yüksək səviyyəsinin göstəricisidir. Biz, həmçinin, ya Azərbaycanın, ya da Belarusun iştirak etmədiyi, amma başqa ölkənin iştirak etdiyi təşkilatlarda da bir-birimizi dəstəkləyirik və bu da təbiidir. Bu, bizim beynəlxalq siyasət, beynəlxalq münasibətlər, regional problemlər və beynəlxalq təhlükəsizliklə əlaqədar məsələləri müzakirə etdiyimiz kimi təbiidir. Bütün bunlar dostlar arasında təbiidir".



Həqiqətən də iki ölkə arasında əlaqələrin dinamikasına nəzər saldıqda aydın olur ki, müxtəlif sahələri əhatə edən Belarus-Azərbaycan münasibətləri qarşılıqlı faydalı əməkdaşlığa və strateji tərəfdaşlığa əsaslanır, uğurla inkişaf edir. Səfər zamanı dövlət başçılarının iştirakı ilə 9 sənəd imzalandı. Bu sənədlər Azərbaycan ilə Belarus arasında iqtisadiyyat, ticarət, nəqliyyat, energetika, hüquq-mühafizə, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Ən vacib sənəd isə dövlət başçıları tərəfindən imzalanmış birgə bəyanatdır. Bəyanatın 6-cı maddəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar məqamlar öz əksini tapıb. Bu, bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyət, o cümlədən Belarus Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyir.

Prezident İlham Əliyevin Türkmənistana rəsmi səfəri isə göstərdi ki, iki ölkənin münasibətlərində yeni mərhələ başlayır.

Səfər zamanı prezidentlər arasında istər təkbətək, istər geniştərkibli görüşdə olduqca konstruktiv və səmərəli danışıqlar aparıldı. Dövlət başçıları ikitərəfli əlaqələrin, ayrı-ayrı sahələr üzrə əməkdaşlığın bütün aspektlərini, yəni onların cari və perspektiv vəziyyətini, o cümlədən, regional təhlükəsizlik və beynəlxalq münasibətlərə dair məsələləri nəzərdən keçirdilər. Görünən odur ki, həm Azərbaycan, həm də Türkmənistan ikitərəfli münasibətlərin daha da inkişafında maraqlıdır.

Danışıqların yekunu olaraq iki ölkə arasında 21 sənəd imzalandı. Bu sənədlər iki qonşu dövlət arasında müxtəlif sahələrdə əməkdaşlığın mövcud hüquqi bazasını daha da möhkəmləndirəcək. Eyni zamanda çoxsaylı sənədlərin imzalanması ikitərəfli münasibətlərin, əməkdaşlıq və qardaşlıq münasibətinin göstəricisidir.

Azərbaycan və Türkmənistan prezidentləri siyasi, iqtisadi, ticarət, energetika, mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri ətrafında geniş fikir mübadiləsi apardılar.

Azərbaycan və Türkmənistan son illərdə öz ərazilərində müasir nəqliyyat infrastrukturunun yaradılmasına və logistika imkanlarının artırılmasına böyük sərmayələr yatırıblar. Təsadüfi deyil ki, həm Türkmənistanda, həm də Azərbaycanda bu il beynəlxalq ticarət limanlarının açılması eyni vaxtda, eyni ayda - may ayında baş verib. Azərbaycanın təşəbbüsü ilə çəkilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti ötən ildən istifadəyə verilib və bununla da "Şərq-Qərb" nəqliyyat dəhlizinin Azərbaycanın və Türkmənistanın yerləşdiyi coğrafiyadan keçən imkanları daha da yüksəlib. Təbii ki, bütün bunlar hər iki ölkə üçün əmtəə dövriyyəsini və tranzit daşımalarını artırmağa yol açır. Bu mənada Prezident İlham Əliyevin səfəri zamanı əldə olunan razılaşmaların nəticəsi olaraq yaxın zamanlarda Azərbaycanla Türkmənistan arasında "Şərq-Qərb" və "Qərb-Şərq" nəqliyyat marşrutları üzrə tranzit yüklərin həcminin artması müşahidə olunacaq. Beləliklə də nəqliyyat sahəsində olan razılaşmalar hər iki ölkəyə böyük mənfəət gətirəcək.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Noyabrın 20-də Daxili İşlər Nazirliyində "Şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi"nin və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə"nin vəziyyətinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.***



Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Kollegiya iclasını açaraq müzakirəyə çıxarılan hər iki məsələnin aktual olduğunu və əməliyyat-xidməti fəaliyyətdə mühüm əhəmiyyət kəsb etdiyini xatırladıb, vətəndaşların müraciətlərinə baxılmasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim xüsusi diqqətində və nəzarətində olduğunu, məhz dövlət başçısının tapşırığına əsasən, son illər mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda mütəmadi olaraq vətəndaşların qəbulunu keçirdiklərini, problemlərini şəxsən dinlədiklərini vurğulayıb.

Qeyd olunub ki, bu mühüm işin məqsədyönlü təşkili vətəndaşların polis orqanlarına inam və etimadının güclənməsinin, vətəndaş məmnunluğunun təmin edilməsinin başlıca şərtlərindən biridir.

Həmçinin, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cəmiyyətin mənəvi dəyərlərinə böyük zərbə vuran, bir çox ağır cinayətlərin törədilməsinin əsas səbəblərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə görülən işlərin vəziyyətinin müzakirə edilməsinin və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinin vacibliyi də vurğulanıb.

Gündəlikdəki birinci məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin Katibliyinin rəisi polis general-mayoru Səfər Əliyev məruzə ilə çıxış edib. O bildirib ki, bütövlükdə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanın və "Açıq hökumətin təşviqinə dair" Milli Fəaliyyət Planının aidiyyəti müddəalarının icrası uğurla davam etdirilir.

Belə ki, son 3 ilə yaxın müddətdə nazirliyin rəhbərliyi tərəfindən 6.569, o cümlədən, kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın bölgələri üzrə 2.812, habelə ərazi polis orqanlarında 178 mindən çox vətəndaş qəbul edilib. Görülmüş tədbirlərlə cari ilin 9 ayında Azərbaycan Respublikası Prezidenti Administrasiyasından daxil olan şikayətlərin sayı 23,7 faiz, nazirliyə daxil olan şikayətlərin sayı 17,7 faiz, o cümlədən, təkrar şikayətlərin sayı 25,7 faiz azalıb. Ümumilikdə, 55 şəhər və rayonun sakinlərindən polis əməkdaşları barədə daxil olan şikayətlərin sayında nəzərəçarpacaq azalma qeydə alınıb. Həmin dövrdə nazirliyə 2 minə yaxın həm fərdi, həm də kollektiv minnətdarlıq məktubları daxil olub.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi polis general-mayoru Həzi Aslanov gündəlikdəki ikinci məsələ barədə məruzə edib. O bildirib ki, nazirlik tərəfindən respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin məqsədyönlü təşkilinə, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə böyük önəm verilir və davamlı tədbirlər görülür. Yeniyetmə və gənclər arasında narkotik vasitələrdən istifadənin qarşısının alınması, hüquqi maarifləndirmə, sağlam həyat tərzinin təbliği mövzularında təkcə cari ilin 9 ayında 78 şəhər və rayonda 695 görüş keçirilib ki, bu tədbirlərin də yarıdan çoxunda polis rəisləri digər hüquq-mühafizə və səhiyyə orqanlarının nümayəndələri ilə birlikdə iştirak ediblər. Həmin müddətdə narkotiklərlə əlaqədar cinayətlər törətmiş 67 nəfərdən ibarət 28 cinayətkar qrup zərərsizləşdirilib, 117,5 kiloqram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb. Qanunsuz dövriyyədən 960 kiloqrama yaxın müxtəlif növ narkotik vasitə, habelə 3 kiloqramdan çox sintetik tərkibli psixoaktiv maddələr çıxarılıb. Narkotik tərkibli bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası sahəsində həyata keçirilmiş tədbirlərlə 132 ton çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

Gündəlikdəki məsələlər ətrafında çıxış edənlər görülmüş işləri, əldə olunmuş nəticələri qeyd etməklə yanaşı, fəaliyyətdə buraxılan bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində kəsərli tədbirlərin həyata keçiriləcəyini bildiriblər.

İclasa yekun vuran Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov müzakirə olunan hər iki məsələ üzrə fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu vurğulayıb, eyni zamanda, qeyd olunan nöqsan və çatışmazlıqların aradan qaldırılmasını tələb edib, konkret tapşırıq və tövsiyələrini verib.

Nazir "Narkotiklərlə mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ilin 16-18 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli Sərəncamının icrası istiqamətində zəruri tədbirlərin görülməsini də tələb edib, həmçinin, güclü təsirə malik olan narkotiklərin qanunsuz dövriyyəyə girmədən aşkarlanmasının, onları qaçaqmalçılıq yolu ilə ölkəyə gətirən şəxslərin müəyyən edilməsinə yönəlmiş əməliyyat-axtarış tədbirlərinin, eləcə də yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın effektivliyinin daha da artırılmasının vacibliyini diqqətə çatdırıb.

Sonda Daxili İşlər Naziri ölkə Prezidenti cənab İlham Əliyevi əmin edib ki, şəxsi heyət ölkənin qanunlarından, dövlət başçısının fərman və sərəncamlarından irəli gələn tələbləri layiqincə yerinə yetirəcək, xalqa və dövlətə sədaqətlə xidmət edəcək, asayişin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, həmişə olduğu kimi, cari ili də yaxşı nəticələrlə başa vuracaqdır.

2_Layout 1 28.11.2018 19:00 Page 1



# DAXİLİ QOŞUNLARIN TƏLİM MƏRKƏZİNDƏ HƏRTƏRƏFLİ ŞƏRAİT MÖVCUDDUR

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında hissə və bölmələrin döyüş təlimi üzrə tapşırıqları yerinə yetirməsi, yüksək səhra vərdişlərinə nail olunması, eləcə də digər aidiyyəti üzrə tədbirlərin təşkili üçün müasir standartlara cavab verən Təlim Mərkəzi fəaliyyət göstərir. Sözügedən mərkəzdə qoşunların hissə və bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsi, onların qarşısında duran tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi, habelə rəhbər sənədlərin tələblərinə uyğun olaraq şəxsi heyətin döyüş təliminin təşkili məqsədilə təlim obyektləri mövcuddur. Burada Daxili Qoşunların Baş İdarəsinin, hərbi hissələrinin hərbi qulluqçuları ilə yanaşı, daxili işlər orqanlarının şəxsi heyəti də praktiki atəş çalışmalarını yerinə yetirirlər.



Daxili Qoşunların Təlim Mərkəzinin rəisi polkovnik-leytenant İlqar Murğuzovun sözlərinə görə, mərkəzdə yüksək standartlara cavab verən altı ədəd atəş sahəsi var. Bunlar tapançadan atış üçün 100 metrlik yarımqapalı tir, snayper tüfəngindən atış üçün sahə, digər atıcı silahlardan (avtomat və pulemyotlardan), iriçaplı silahlardan, əl və dəzgahlı qumbaraatanlardan, ZTR və zirehli nəqliyyat vasitələrindən, xüsusi atış çalışmaları və xüsusi vasitələrin atışı sahələridir. Adıçəkilən atış sahələrində bütün növ silahlardan atəş açmaq mümkündür. Atışların idarə olunması və müşahidə aparılması komandanlıq və digər idarəetmə məntəqələrində həyata keçirilir.

Təlim Mərkəzinin rəisi hərbi qulluqçuların praktiki fəaliyyətlərinin təkmilləşdirilməsi baxımından "Atəş hazırlığı", "Mühəndis hazırlığı", "Tək əsgərin döyüş təlimi", "Xüsusi vasitələrin tətbiqi", "Daxili Qoşunların taktiki hazırlığı", "KİQA üzrə təlim-məşq" və "Taktiki hazırlıq" şəhərciklərinin praktiki əhəmiyyətini vurğuladı. O, səhra şəraitində nəzəri biliklərin aşılanması üçün hər cür şəraitin olduğunu da sözlərinə əlavə etdi. Təlim Mərkəzində bu məqsədlə yaradılan tədris siniflərinin şəxsi heyətin istifadəsində olduğunu bildirdi. Bundan başqa, burada səhra yeməkxanası, yuyunma yerləri və sanitar qovşaqlar mövcuddur.



Yaradılan hərtərəfli şəraitin, eləcə də Təlim Mərkəzinin daimi yüksək döyüş hazırlığının qorunub saxlanılmasını buradakı təminat bölüyü həyata keçirir. Təminat bölüyünün şəxsi heyəti üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək, tapşırıqları uğurla icra edir. Təlim Mərkəzinin etibarlı mühafizəsi, hissə və bölmələrin praktiki atışlarının təmin edilməsi, atış sahələrinin daim hazır vəziyyətdə olması, təlim şəhərciklərinin, o cümlədən, tədris siniflərinin hazırlanması, ərazinin təmizliyi və səliqə-sahmanının qorunub saxlanılması təminat bölüyünün əsas vəzifələrindəndir.



Təlim Mərkəzində şəxsi heyətin sosial-məişət şəraiti də müasir tələblərə cavab verir. Belə ki, səhra çıxışına cəlb olunan şəxsi heyətin yerləşməsi, yəni dəyişən heyət üçün 300 nəfərlik, daimi heyət üçün isə 100 nəfərlik əsgər kazarması var. Bundan başqa, əsgər yeməkxanası, tibb məntəqəsi, hamam-camaşırxana və qazanxana fəaliyyət göstərir. Təlim Mərkəzində bütün sahələri daima nəzarətdə saxlamaq üçün kamera-nəzarət sistemi quraşdırılıb.





Bir sözlə, Daxili Qoşunların hərbi qulluqçularının peşə vərdişlərinin təkmilləşdirilməsi, həmçinin, hərbi bilik və bacarıqlarının artırılması baxımından Təlim Mərkəzində hərtərəfli şərait mövcuddur.

**kapitan Teymur Əlizadə**

# HƏRBİ HİSSƏLƏR QIŞ MÖVSÜMÜNƏ TAM HAZIR VƏZİYYƏTDƏDİR

**Ölkəmizdə hər sahədə olduğu kimi, hərbi quruculuq sahəsində də inkişaf sürətlə davam edir, yeni-yeni uğurlar əldə olunur. Bütün bunlar təbii ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi qulluqçulara göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir.**

Daxili Qoşunların hərbi qulluqçularının sosial-məişət şəraitinin yaxşılaşdırılması da bu siyasətin tərkib hissəsidir. Demək olar ki, bütün hərbi hissələrdə zabit və gizir hərbi qulluqçular üçün müasir standartlara cavab verən yaşayış binaları, yataqxanalar və yeməkxanalar istifadəyə verilib və bu proses ardıcıl olaraq davam etdirilməkdədir.

Görülmüş yeni işlər barədə məlumat verən Maddi-texniki təminat İdarəsində mənzil-istismar xidmətinin rəisi polkovnik-leytenant Vidadi Məmiyev qoşunlarda son illər abadlıq-quruculuq işlərinin geniş vüsət aldığını dedi. Bildirdi ki, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının "2018-ci ildə Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbində, Təlim Mərkəzində və hərbi hissələrində qoşun təsərrüfatının qış mövsümünə hazırlığı üzrə tədbirlər planı"nın icrası ilə bağlı şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Daxili Qoşunların Baş İdarəsinin, Ali Hərbi Məktəbin və hərbi hissələrin yaşayış və qeyri-yaşayış binalarında kosmetik təmir işləri aparılıb, yeni istilik xətləri çəkilib və istilik radiatorları quraşdırılıb.





Ümumilikdə, qış mövsümünə hazırlıqla bağlı işlərin davam etdirildiyini söyləyən xidmət rəisi istər bölgələrdə, istərsə də Bakı qarnizonunda yerləşən hərbi hissələrdə yataqxanaların istilik sistemi ilə təchizatında heç bir problemin olmadığını sözlərinə əlavə etdi: "Ali Hərbi Məktəbin və 25032 saylı hərbi hissənin qazanxanalarının hər birində 1 ədəd istilik qazanı odluqla birlikdə quraşdırılıb, tüstü boruları çəkilib. 67987 saylı hərbi hissədə xidməti itlər yetişdirmə məntəqəsinə istiliyin verilməsinin yaxşılaşdırılması məqsədilə təbii qaz xəttinin üzərində əlavə avadanlıq quraşdırılıb, qazanxanada isə istilik qazanının odluğunda təmir işləri aparılaraq, istifadəyə verilib. Bundan əlavə, 25031 saylı hərbi hissənin dördmərtəbəli qərargah-kazarma binasının 2-ci və 3-cü mərtəbələrində döşəməaltı istilik xətti bərpa edilib, 2 ədəd alışdırıcı yenisi ilə əvəz olunub. Qazanxanalar işə salınaraq yoxlanılıb, qış mövsümündə istismarı üçün hazır vəziyyətə gətirilib".

Həmçinin, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə quraşdırılmış elektrik və qaz avadanlıqlarına texniki qulluq göstərilib, elektrik və qaz təsərrüfatı yoxlanılıb, xətlər qış mövsümündə istismara hazırlanıb.

Şəxsi heyətin içməli suya olan tələbatının ödənilməsi məqsədilə həyata keçirilən tədbirlər barədə də məlumat verən polkovnik-leytenant V.Məmiyev vurğuladı ki, 67987 saylı hərbi hissənin yerləşdiyi ərazidə aparılan təmir işləri ilə əlaqədar hərbi hissəyə yeni su xətti çəkilib, köhnə su boruları yenisi ilə əvəz edilib və 2 ədəd dövriyyə su nasosu təmir olunub. 17074 və 16073 saylı hərbi hissələrdə artezian su nasosları, Daxili Qoşunların Baş İdarəsində dövriyyə su nasosları, 25031 saylı hərbi hissədə isə 1 ədəd mərkəzdənqaçma və 3 ədəd dövriyyə su nasosu təmir edilərək istismara verilib.

Məlum olduğu kimi, qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün vacib nüanslardan biri də nəqliyyat vasitələrinin və helikopterlərin saz vəziyyətdə olmasıdır. Bu barədə danışan Maddi-texniki təminat İdarəsində avtomobil və zirehli texnika şöbəsinin rəisi polkovnik Fuad Alıyev bildirdi ki, nəqliyyat vasitələrinin texniki vəziyyəti daim nəzarətdə saxlanılmaqla yanaşı, şəxsi heyətlə qış dövründə nəqliyyat vasitələrinin istismarı qaydaları, texniki xidmət və təmir işləri zamanı təhlükəsizlik tədbirlərinə riayət olunması mövzularında məşğələlər keçirilib. Parklarda avadanlıqların, akkumulyator və digər təmir otaqlarının, meydançaların, texniki xidmət və təmir üçün səyyar vasitələrin, habelə digər park elementlərinin vəziyyəti yoxlanılıb və saz vəziyyətə gətirilib. Bundan başqa, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə cari ilin sentyabr ayından etibarən nəqliyyat vasitələrinin qış mövsümündə təhlükəsiz istismarı üçün hərəkətin təhlükəsizliyini təmin edən hissə, mexanizm və cihazların sazlığının bir daha yoxlanılması, mövsümə uyğun mayelərin və yağlama materiallarının dəyişdirilməsi təmin olunub.



Eləcə də yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə Ali Hərbi Məktəbdə və hərbi hissələrdə hər ay Dövlət Yol Polisinin vəzifəli şəxslərinin iştirakı ilə zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçularla məşğələlər keçirilərək, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri çatdırılıb.

Qoşunların şəxsi heyətinin qış geyim əmlakları ilə təmin olunması barədə məlumat verən Maddi-texniki təminat İdarəsində əşya xidmətinin rəisi polkovnik-leytenant Rafət Mustafayev bildirdi ki, Ali Hərbi Məktəbin və hərbi hissələrin təminatı tam olaraq həyata keçirilib, qarovul xidmətinə cəlb edilən şəxsi heyət qış xüsusi geyim əmlakları (isti şalvar, keçə çəkmə, zeytun rəngli plaş) ilə təmin olunub. Hərbi hissələrdə istifadə olunmuş qış mövsümü geyim əmlaklarının yuyulması başa çatdırılıb, camaşırxana kombinatlarında mövcud olan camaşırxana avadanlıqlarına texniki qulluq göstərilib, 16077 saylı hərbi hissədə yeni camaşırxana avadanlıqları quraşdırılaraq, istifadəyə verilib. Eyni zamanda, qış mövsümündə temperatur rejiminin saxlanılması məqsədilə Ali Hərbi Məktəbin və hərbi hissələrin əsgər hamamlarının yuyunma otaqlarına istilik xətləri çəkilib və radiatorlar quraşdırılıb.








Hərbi hissələrdə əsgər yeməkxanalarının, ərzaq və tərəvəz anbarlarının, o cümlədən, mərkəzləşdirilmiş ərzaq anbarlarının qışa hazırlanması üzrə görülən tədbirlər barədə isə Maddi-texniki təminat İdarəsində ərzaq xidmətinin rəisi polkovnik-leytenant Tamerlan Fərmanov danışdı. Söylədi ki, bütün hərbi hissələrdə soyuducu və texnoloji avadanlıqlara texniki qulluq göstərilib, əsgər yeməkxanalarında, xüsusən, qida qəbulu zallarında istilik sistemlərinin, mətbəxlərdə quraşdırılmış elektrik cihaz və avadanlıqların, həmçinin, səhra mətbəxlərinin texniki cəhətdən sazlığı yoxlanılıb, istifadə müddəti bitmiş soyuducu və texnoloji avadanlıqlar yenisi ilə əvəz edilib. Bütün hərbi hissələrin ərzaq anbarlarında ərzaq və əmlak üzrə ehtiyat fond yaradılıb. İl ərzində Ali Hərbi Məktəbə və hərbi hissələrə ərzaq məhsullarının tədarük edilməsi, normalara uyğun şəxsi heyətə çatdırılması, xörəklərin keyfiyyəti, əsgər yeməkxanalarının və Hərbi Ticarət Mərkəzinin obyektlərinin sanitar vəziyyəti nəzarətdə saxlanılıb.

Bundan başqa, qış mövsümü ərəfəsində qoşunların şəxsi heyətinin sağlamlıq durumunun qənaətbəxş olması da komandanlığın diqqət mərkəzində saxladığı mühüm məsələlərdəndir. Belə ki, bu istiqamətdə həyata keçirilən tədbirlər haqqında Daxili Qoşunların Baş İdarəsində tibb xidmətinin rəisi polkovnik Rasim Qüdrətov məlumat verdi. Bildirdi ki, xidmətin fəaliyyətinin əsas istiqaməti hava-damcı infeksiyalarının şəxsi heyət arasında əmələ gəlməsinin və yayılmasının qarşısının alınmasına, eləcə də xəstələnmələrin erkən aşkarlanmasına, xəstələrin qospitalizasiyasına və müalicəsinə, həmçinin, digər əksepidemik tədbirlərin həyata keçirilməsinə yönəldilib. Belə ki, xəstələnmələrin baş verəcəyi hallar üçün peyvənd materiallarının, kimyəvi-terapevtik preparatların və dezinfeksiyaedici maddələrin ehtiyatı yaradılıb.

Həmçinin, hərbi hissələrdə tibb personalı tərəfindən xidməti və yataq otaqlarında hərarət rejiminə, o cümlədən, şəxsi heyətin yerləşdirilməsinə, qida və su təminatına nəzarət gücləndirilib. Şəxsi heyətin immun sisteminin gücləndirilməsi məqsədilə hər bir hərbi qulluqçunun gündəlik olaraq qida rasionuna multivitaminin (heksavit), soğanın əlavə edilməsi, ilin soyuq aylarında isə soğanın sarımsaqla əvəz olunması planlaşdırılıb.

Bundan əlavə, Ali Hərbi Məktəbin və hərbi hissələrin yerləşdiyi ərazilərdə mülki əhali arasında yoluxucu xəstəliklər üzrə epidemik vəziyyət haqqında məlumat almaq məqsədilə yerli səhiyyə müəssisələri ilə daimi əlaqə saxlanılır və alınan məlumatlar əsasında müvafiq tədbirlərin görülməsi davam etdirilir.

Bölmələrdə xəstələrin (və ya xəstəliyə şübhəlilərin) aktiv aşkarlanması, onların müayinə və müalicəsində konsultativ köməkliyin göstərilməsi üçün Daxili Qoşunların Baş İdarəsinin tibb xidmətinin zabitlərinin və 12576 saylı hərbi hissənin həkim-mütəxəssislərinin hərbi hissələrə ezam edilməsi təşkil edilir.

Son olaraq, görülən bütün işlərin nəticəsi deməyə əsas verir ki, Daxili Qoşunlarda qışa hazırlıq yüksək səviyyədə həyata keçirilib. Hərbi hissələr qış mövsümünə tam hazır vəziyyətdədir. Bütün bunlar isə, öz növbəsində, Daxili Qoşunların ilin bütün fəsillərində qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirməsinə əsas verir.

**baş leytenant Xədicə Hacızadə**

3_Layout 1 28.11.2018 19:04 Page 1



Şəhidlərimiz

# DÖYÜŞ MEYDANINDA HÜNƏR GÖSTƏRƏN İGİD OĞUL...

***Vətənimizin ən ağır günlərində digər rayonlarımızda olduğu kimi, Şəmkirin igid oğulları da silaha sarılaraq, erməni vandallarına qarşı döyüşə yollandılar. Bu müqəddəs amal uğrunda rayon sakinlərindən 230 nəfəri şəhid, onlarla şəmkirli isə əlil olub.***

***Şəmkirin şəhidlik zirvəsinə yüksələn igid övladlarından 17 nəfəri məhz Daxili Qoşunların cəsur döyüşçüləri idi. Onlardan biri də rayonun Yeni Həyat kəndinin vətənpərvər oğlu şəhid Vüqar Məmmədovdur.***

Sıravi Vüqar Bayram oğlu Məmmədov 1971-ci il iyul ayının 7-də Şəmkir rayonunun Yeni Həyat kəndində dünyaya göz açıb. Atası Bayram kişinin və Güllüzar ananın (hər ikisi vəfat edib) halal zəhmətlə böyüdüb tərbiyə etdiyi 4 övladın (Fərman, Bahar, Mehbarə və Vüqar) biri, eyni zamanda ailənin sonbeşiyi idi Vüqar.

1988-ci ildə Yeni Həyat kənd orta məktəbini bitirdikdən sonra iki il Sovet Ordusu sıralarında Moskva ətrafında yerləşən hərbi hissələrdən birində müddətli həqiqi hərbi xidmət keçib. Nümunəvi xidmətinə və yüksək nizam-intizamına görə hərbi hissədən ailəsinə tərifnamə göndərilib.

İgid silahdaşımızın bacısı Bahar Məmmədova onun bacarıqlı, işgüzar və intizamlı olduğu üçün hər kəs tərəfindən sevildiyini deyir: "Vüqar məndən 4 yaş kiçik, həm də ailəmizin sonbeşiyi idi. Uşaqlıqdan sakit, mehriban, deyib-gülən, eləcə də çalışqan şagird olduğu üçün həm qohum-qonşular, həm də məktəbdə müəllim və şagird yoldaşları onun xətrini çox istəyirdi. Təsərrüfat işlərinə, xüsusən də heyvandarlıq sahəsinə böyük maraq göstərərdi. İşdən-gücdən heç zaman qaçmaz, atama kömək edərdi. Olduqca zəhmətkeş bir insan idi.



ŞƏHİD VÜQAR MƏMMƏDOV

Vüqar həm də vətənpərvər bir gənc idi. Cəbhəyə də könüllü olaraq getmişdi. Nə deyim? Vətənini, el-obasını sevən igid oğullarımızla ancaq qürur duymaq olar. Bu səbəbdən də qardaşım Vüqarla ancaq fəxr edir, onunla qürur duyuram".

1992-ci il avqust ayının 12-də gənc Vüqar Şəmkir Rayon Hərbi Komissarlığına gələrək könüllü olaraq torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmək arzusunda olduğunu bildirir. Beləliklə o, qəlbində olan böyük Vətən sevgisi və düşmənə sonsuz nifrət hissi ilə doğma yurdumuzun müdafiəsinə yollanır.

Bir müddət sonra V.Məmmədov Daxili Qoşunların Ağdam rayonunda-döyüş bölgəsində yerləşən "N" saylı hərbi hissəsinin "sıravi" hərbi qulluqçusu kimi Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə başlayır. O, bu hərbi hissənin tərkibində Ağdərə rayonu ərazisindəki bir sıra kənd və yüksəkliklərin azad edilməsi, eləcə də müdafiəsi uğrunda gedən ağır döyüş əməliyyatlarında fəal iştirak edir.

**10 noyabr 1992-ci il.** Ağdərə rayonunun Sırxavənd kəndi ətrafında gedən şiddətli döyüşlər sıravi V.Məmmədovun son döyüşü olur. Bu döyüşdə tərkibində Vüqarın da olduğu on beş nəfər igid silahdaşımız erməni cəlladlarına qarşı qətiyyətlə vuruşaraq, düşmənə sarsıdıcı zərbələr endirir. Həmin döyüşdə təkcə sıravi V.Məmmədov iriçaplı pulemyotla düşmənin 20-dək canlı qüvvəsini məhv edir. Ümumilikdə isə, hərbi əməliyyatların gedişatında erməni cəlladları 70-dən çox itki verirlər. Lakin döyüşün sonunda bu qəhrəman oğulların hər biri düşmən gülləsinə tuş gələrək əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlir. Onu da qeyd edək ki, Vüqarla birgə şəhidlik zirvəsinə yüksələn bu igid oğullardan 2 nəfəri də (Hüseynov Elpərəst Akif oğlu və Qasımov Kərim Mehdi oğlu) məhz Şəmkir rayonunun vətənpərvər oğulları idi.

Bu barədə 1992-ci ilin noyabrın 19-da Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı tərəfindən Məmmədovlar ailəsinə ünvanlanmış məktubda yazılıb:

**"Məmmədovlar ailəsinə!**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsi oğlunuz Vüqarın torpaqlarımızın erməni qəsbkarlarından təmizlənməsi uğrunda Qarabağ bölgəsində gedən döyüşlərdə qəhrəmancasına həlak olduğunu bildirir.

Sizin oğlunuz Vüqar axırıncı dəfə Ağdərə rayonu ərazisində, Sırxavənddən Çıldırana gedən yolda ermənilərin üç postunu dağıtmış, 20-yə qədər erməni öldürmüş və düşmənin hücum əməliyyatını pozmuşdur. Sizin oğlunuz qeyrət göstərərək, qeyrət rəmzinə çevrilmiş, Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Siz Vüqarın Vətən yolunda ölümü ilə, qəhrəmanlığı ilə öyünə bilərsiniz.

Sizi əmin edirik ki, oğlunuzun qanını döyüşçü dostları yerdə qoymayacaqlar.

DİN-in Daxili Qoşunlarının Baş İdarəsi torpaqlarımızın bölünməzliyi uğrunda həlak olmuş silahdaşımız Vüqarın ailəsinə, qohum və tanışlarına dərin hüznlə başsağlığı verir, onun şəhid adını əziz tutacaq və daim qəlbimizdə yaşadacağıq.

Allah rəhmət eləsin. Qəbri nurla dolsun!".

Vətən uğrunda canını qurban verən sıravi Vüqar Məmmədov noyabr ayının 13-də doğma Yeni Həyat kənd qəbiristanlığında dəfn olunub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2005-ci il tarixli Sərəncamı ilə əsgər Vüqar Məmmədov dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiyinə, döyüş zamanı igidlik göstərdiyinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə "İgidliyə görə" medalı ilə (ölümündən sonra) təltif edilib (Medal 16.12.2006-cı il tarixdə Daxili Qoşunların Baş İdarəsində Daxili Qoşunların Komandanı tərəfindən şəhidin atasına təqdim olunub).

Xeyli müddət keçməsinə baxmayaraq, Vüqarın döyüşçü dostları onun qəhrəmanlığını bu gün də böyük iftixar hissi ilə qeyd edirlər.

Vaxtilə igid döyüşçü ilə birgə xidmət etmiş həmyerliləri, hazırda Daxili Qoşunların veteranları olan Şəmkir rayonu, Keçili kənd sakini Etibar Məmmədov, Səməd Vurğun qəsəbə sakini Şakir Ağayev, eləcə də həmkəndlisi və eyni zamanda da komandiri olmuş Nemət Vəliyevin onun haqqında qürur hissi ilə söylədikləri ümumi fikirlər məhz bu qəbildəndir: "Vüqarla eyni gündə hərbi xidmətə çağırılmışıq. Cəbhəyə də bir bölüyün tərkibində, eyni gündə yollanmışdıq. İlk gəldiyimiz yer Xındırıstan kəndi oldu. Bir gecə qaldıqdan sonra Mehmana kəndi ətrafında postlarda müdafiə mövqeyində dayandıq. Səhərisi gün ermənilər bizim olduğumuz mövqelərə hücuma keçdilər. Təxminən bir sutka şiddətli döyüş baş verdi. Düşmən niyyətinə çata bilməyib, geri çəkilmək məcburiyyətində qaldı. Sonralar Vüqarla birgə Ağdam və Ağdərə rayonlarının bir sıra kənd və yüksəkliklərinin azad edilməsi, eləcə də müdafiəsi uğrunda aparılan hərbi əməliyyatlarda yaxından iştirak etmişik. Bu əməliyyatlar zamanı Vüqar onlarla erməni yaraqlısını məhv edərək, əsl döyüşçü kimi fərqlənmişdi.

Vüqar Vətənini qəlbən sevən əsl vətənpərvər, qorxubilməz döyüşçü idi. Mərd, qətiyyətli, eyni zamanda da intizamlı əsgər kimi yaddaşda qalıb. Hər kəslə mehriban davranırdı, xoş xasiyyəti vardı. Bu xüsusiyyətlərinə görə Vüqar kollektivdə böyük hörmət qazanmışdı".

Məlumat üçün qeyd edək ki, şəhid V.Məmmədovun həyat və döyüş yolundan bəhs edən yazılara görkəmli ziyalılarımız – Şamxal Rüstəmin 1995-ci ildə Bakıda "Şərq-Qərb" nəşriyyatında işıq üzü görən "Şəmkir şəhidləri", Ramiz Məsimoğlu və Rüfət Hüseynlinin müəllifi olduqları "Ölməz Qəhrəman" adlı kitablarında, Yeni Həyat kənd orta məktəbinin müəllimi Tofiq Ramazanovun müəllifi olduğu və "Şəmkir" qəzetinin 14.01.1993-cü il tarixli sayında dərc edilmiş "Qeyrət rəmzinə çevrilmiş şəhid" başlıqlı məqaləsində, həmçinin, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

Bundan əlavə, V.Məmmədovun adı Daxili Qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda 347-ci sıra nömrəsi ilə qeydə alınıb və 67987 saylı hərbi hissənin sıravi döyüşçüsü kimi 10.11.1992-ci il tarixdə gedən döyüşlər zamanı həlak olması göstərilib.

Vüqar kimi mərd, cəsur silahdaşlarımız Daxili Qoşunların tərkibində xidmətlərini bu gün də şərəf və ləyaqətlə davam etdirirlər. Sıralarında vətənpərvər oğulların xidmət etdiyi ordumuz işğal altında olan müqəddəs torpaqlarımızı yağı düşməndən azad etməyə hər zaman hazırdır.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan Anar Əhmədov**

# BAKIDA AZƏRBAYCAN GƏNCLƏRİNİN VIII FORUMU KEÇİRİLİB

***Forumda Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları da iştirak ediblər***

Noyabrın 16-da Bakı Konqres Mərkəzində "Cümhuriyyətin varisləri - Azərbaycanın gələcəyi" şüarı altında Azərbaycan Gənclərinin VIII Forumu keçirilib. Forumda dövlət və hökumət rəsmiləri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi - Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Gənclər və idman naziri Azad Rəhimov, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov, Milli Məclisin deputatları, gənclər təşkilatlarının rəhbərləri, ölkənin müxtəlif güc strukturlarının hərbi qulluqçuları və idmançılar iştirak ediblər.




Tədbirdə Daxili Qoşunların Baş İdarəsinin Mənəvi-psixoloji hazırlıq şöbəsində baş zabit mayor Anar Qurbanovun rəhbərliyi ilə Daxili Qoşunların Baş İdarəsindən və 99713, 67987 saylı hərbi hissələrdən 50 nəfər hərbi qulluqçu iştirak edib.

Mayor A.Qurbanovla söhbət zamanı məlum oldu ki, ümumilikdə, 2000 nəfərə yaxın iştirakçısı olan tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, xalqımızın Milli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qrup rəhbəri bildirdi ki, forum 3 hissədən ibarət olub. Tədbirin ilk-rəsmi hissəsində çıxış edən Birinci vitse-prezidentin köməkçisi - Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev Azərbaycan Prezidenti İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub. Daha sonra Azərbaycan Gənclərinin VII Forumundan ötən müddətdə ölkəmizdə gənclər sahəsində həyata keçirilən tədbirlər barədə hazırlanan videoçarx nümayiş etdirilib.

Daha sonra gənclər və idman naziri Azad Rəhimov çıxış edib.

Bildirilib ki, istər Xalq Cümhuriyyətinin mövcud olduğu, istərsə də Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə gənclərin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verilib. Azərbaycan Gənclərinin ilk Forumu da məhz Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də keçirilib. Forum Azərbaycanın müasir ictimai-siyasi tarixində layiqli yer tutaraq dövlətin gənc nəslin hərtərəfli inkişafına yönəlmiş strategiyasına mühüm təkan verib. Hazırda da gənclər siyasəti dövlətin sosial siyasət kursunun və insan kapitalının inkişafı prosesinin əsas istiqamətlərindən biridir.

O, çıxışının sonunda forumun dövlət gənclər siyasətinin daha səmərəli icrası ilə bağlı geniş və hərtərəfli müzakirələrin, parlaq və innovativ ideyaların məkanına çevriləcəyinə, gəncləri yeni uğurlara ruhlandıracağına əminliyini ifadə edib.

Tədbirin ikinci hissəsində isə gənclərin mövcud problemləri, onların həlli istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər, gənclərdə vətənpərvərlik hissinin formalaşdırılması və inkişafı, əngəlli gənclərin cəmiyyətə adaptasiya olmaları və digər maraqlı mövzularda müzakirələr aparılıb. Tədbirin zona toplantılarından foruma seçilmiş nümayəndə heyətlərinin rəhbərləri təmsil etdikləri bölgələrdə görülən işlər barədə məruzələrlə çıxış ediblər.

Tədbirin yekununda isə qətnamə və VIII Forumun iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

Tədbirin bədii hissəsi vətənpərvərlik mövzusunda musiqilərlə davam edib.

**baş leytenant Xədicə Hacızadə**

# 3 DEKABR - BEYNƏLXALQ ƏLİLLƏR GÜNÜ

## *Əlillərə qayğı dövlətimizin sosial siyasətinin mühüm istiqamətidir*

Hər il dekabrın 3-də dünya ölkələrində Beynəlxalq Əlillər Günü qeyd olunur. Bununla bağlı Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi xüsusi qərar qəbul edib. Bu günün qeyd edilməsində məqsəd beynəlxalq ictimaiyyətin diqqətini əlillərin problemlərinə yönəltmək və onlara mənəvi dəstək olmaqdır. Dünya üzrə müxtəlif xəstəliklər, habelə qəza və təbii fəlakətlər, eləcə də terror aktları, hərbi münaqişələr nəticəsində on minlərlə insan əlil olur, əmək qabiliyyətini itirir. Belə şəxslərin reabilitasiyası, sosial müdafiəsinin təşkili, cəmiyyətdən təcrid olunmaması məqsədilə bir çox ölkədə müvafiq proqramlar və layihələr həyata keçirilir. Beynəlxalq miqyasda əlillərin hüquqlarının qorunmasını özündə ehtiva edən konvensiyalar, xüsusi direktiv xarakterli hüquqi sənədlər qəbul olunub. Bu sənədlərin müddəalarında əlillik məfhumuna sivil yanaşma meyarları öz əksini tapıb, əlil olmuş şəxslərin vətəndaşlıq hüquqlarının təmin edilməsinə hərtərəfli şəraitin yaradılmasının vacibliyi vurğulanıb.

Tarixən əlillərə mərhəmətlə yanaşılıb, onlara güzəştlər edilib, yardımlar göstərilib. Ancaq bu gün sivil dünyada əlillərlə bağlı nəzərəçarpan əsas yanaşma ondan ibarətdir ki, onlara humanist münasibət qorunub saxlanmaqla yanaşı, həmin insanlar cəmiyyətin həyatında fəal iştirak etməyə həvəsləndirilsinlər, bilik və istedadları ilə yaşadıqları dövlətlərin inkişafına fayda verməyə təşviq edilsinlər, müasir bərpa-reabilitasiya texnologiyalarına əlçatanlıq baxımından real imkanlara sahib olsunlar, təhsil, peşələrə yiyələnmə və əmək fəaliyyətinin qurulması prosesindən kənarda qalmasınlar. Sadalanan bu müsbət məqamlar əlillərin mənəvi-psixoloji durumunun yaxşılaşmasına, özlərini cəmiyyət üçün gərəkli hiss etmələrinə, sosial statuslarının möhkəmlənməsinə önəmli dərəcədə təsir göstərir. Bütün bunlar, ümumi kontekstdə, insan hüquqlarının ali mənəvi dəyər kimi uca tutulması deməkdir. İnsan haqlarına ehtiram həm də əlillərə olan münasibətlə ölçülür.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq beynəlxalq aləmdə əlillərlə bağlı bir çox təşəbbüsü bu günədək dəstəkləyib, həmin sahəyə aid müvafiq konvensiyalara qoşulub, habelə aidiyyəti qlobal proqramların reallaşdırılmasında yaxından iştirak edib. Ölkəmiz, ənənəvi olaraq, bu humanitar məsələdə yeritdiyi mütərəqqi siyasətə sadiqdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, respublikamızda ötən illərdə əlil olmuş vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi məqsədilə qanunvericilik aktları, dövlət proqramları qəbul olunub. İnamla vurğulamaq olar ki, ölkəmizdə bu sahəyə aid mükəmməl hüquqi baza formalaşdırılıb. Əlil olmuş vətəndaşlarımız aidiyyəti üzrə pensiya və müavinətlərlə, pulsuz tibbi xidmətlə, reabilitasiya vasitələri, onlar üçün yaradılan xüsusi iş yerləri ilə təmin




olunublar. Həmçinin, bu kateqoriyadan olan şəxslər bir sıra vergi növlərindən və rüsumlardan azaddırlar. Şəhərlərimizdə və digər iri yaşayış məntəqələrimizdəki ictimai yerlərdə əlillər üçün xüsusi keçidlər düzəldilib, istirahət guşələri yaradılıb. İctimai nəqliyyatda oturacaqlar sərnişindaşıma qaydalarının tələblərinə uyğun olaraq, ilk növbədə, əlillər üçün nəzərdə tutulub. İctimai iaşə obyektlərində əlillərə növbədənkənar qulluq göstərilməsi də qanunvericiliyin tələbidir. Respublikamızın turizm mərkəzlərində, sanator tipli müəssisələrində əlil olmuş vətəndaşlarımız üçün kvotalar da müəyyən edilib.

Azərbaycanın suverenliyi, dövlətçiliyi və ərazi bütövlüyünün müdafiəsində əlil olmuş hərbi qulluqçularımızın sosial müdafiəsi də dövlətimizin xüsusi diqqət mərkəzindədir. Müharibə əlilləri, ümumilikdə, əlil vətəndaşlar üçün nəzərdə tutulan bütün imtiyazlardan istifadə etməkdən əlavə, dövlət hesabına ev-mənzil, torpaq sahəsi, habelə avtomobillə təmin olunurlar. Onların övladları universitetlərə qəbul olunduqda təhsil haqqından azaddırlar. Bununla yanaşı, müharibə əlillərimiz ötən illər ərzində dəfələrlə xarici ölkələrdəki tibb müəssisələrinə bərpa müalicəsinə göndəriliblər. Bütün bunlar Azərbaycan dövlətinin əlil vətəndaşlarına yüksək diqqət və qayğısının təzahürüdür.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının bir qrup hərbi qulluqçusu respublikamızın Konstitusiya quruluşu, suverenliyi və ərazi bütövlüyünün müdafiəsində xidməti-döyüş tapşırıqlarını yerinə yetirərkən əlil olub. Qeyd etmək lazımdır ki, erməni işğalçılarına qarşı döyüşlərdə Daxili Qoşunların min nəfərdən çox hərbi qulluqçusu müxtəlif dərəcəli yaralanıb. Bu gün onların böyük əksəriyyəti sıralarımızda deyil, ehtiyatdadır. Əlil olmuş veteranlarımıza Daxili Qoşunların Komandanlığı və şəxsi heyəti öz diqqət və qayğısını əsirgəmir. Onların Vətənimiz və dövlətimiz uğrunda fədakarlığı şəxsi heyətə örnək olaraq aşılanır. Müharibədə yaralanmış və bu gün sıralarımızda xidmət edən hərbi qulluqçularımıza da hər zaman hörmətlə yanaşılır. Onların hərbi formasına digər fərqlənmə nişanları kimi, yaralandığını əks etdirən xüsusi nişan da taxılır. Belə bir nişanın daşınması hərbi-vətənpərvərlik tərbiyəsi baxımından da əhəmiyyətli addımdır. Ümumilikdə, yaralanmış və əlil olmuş hərbi qulluqçularımızın döyüş yolunun öyrənilməsi, onların ictimaiyyətə və şəxsi heyətə tanıdılması, sosial qayğılarının işıqlandırılması hərbi mətbuat orqanının fəaliyyətinin vacib istiqamətlərindən biri olmalıdır. Həmçinin, hərbi xidmət gedişində əlilliyə gətirib çıxara biləcək travmatizm hallarının profilaktikası məqsədilə geniş maarifləndirmə işinin aparılmasına da xüsusi diqqət yetirilməlidir.

Hər bir cəmiyyətdə əlillər yaşayırlar. Onların özlərini tənha və aciz hiss etməmələri, köməksiz olmadıqlarını anlamaları istənilən cəmiyyətin mənəvi cəhətdən dayanıqlı inkişafı baxımından vacib amildir.

Heç kəs əlillikdən sığortalanmayıb. Əlilə qarşı qeyri-insani davranış, hər hansı ədalətsiz və ya yersiz münasibət bütövlükdə cəmiyyətdaxili münasibətlərdə ağır fəsadlara yol aça bilər.

Müqəddəs dinimiz və milli-mənəvi dəyərlərimiz də əlil, şikəst, sağlamlığını itirən insanlarla xeyirxah davranışı vacib əməl kimi buyurur. Ona görə də hər birimiz yaşından, vəzifəsindən, ictimai əqidəsindən, ailə vəziyyətindən, sosial mənsubiyyətindən asılı olmayaraq, əlillərə xoş və qayğıkeş münasibət göstərməliyik, onların müraciətlərinə həssas yanaşmalıyıq, insani keyfiyyətlərin aşınmasına yol verməməliyik.

Beynəlxalq Əlillər Gününün ənənəvi olaraq keçirilməsi də bizi bu gerçəkliklər barədə həmişə düşünməyə çağırır. Unutmayaq ki, hər bir əlil fəxrlə yaşadığımız müstəqil dövlətimizin bərabərhüquqlu vətəndaşıdır.

**Yalçın Abbasov**

4_Layout 1 28.11.2018 19:09 Page 1



*İdman*

# ƏLBƏYAXA DÖYÜŞ NÖVÜ ÜZRƏ TURNİR KEÇİRİLİB

***"2018-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, idmanın əlbəyaxa döyüş növü üzrə Daxili Qoşunların birinciliyi keçirilib. Yarışda Ali Hərbi Məktəb, 99713, 67987, 16075, 25031 və 16076 saylı hərbi hissələrdən 6 komanda olmaqla, 40 nəfər hərbi qulluqçu öz qüvvəsini sınayıb.***



Şəxsi və komanda birinciliyi uğrunda turnirin nəticələri aşağıdakı kimi olub:

**65 kq. çəki dərəcəsində**

I yer - çavuş Nəriman Əhmədov (67987 saylı hərbi hissə);
II yer - çavuş Nurlan Hacıyev (67987 saylı hərbi hissə);
III yer - əsgər Araz Xəlilov (99713 saylı hərbi hissə).

**70 kq. çəki dərəcəsində**

I yer - baş leytenant Natiq Allayarov (67987 saylı hərbi hissə);
II yer - çavuş Taleh Nəbiyev (99713 saylı hərbi hissə);
III yer - əsgər Sənan Abdullayev (67987 saylı hərbi hissə).

**75 kq. çəki dərəcəsində**

I yer - çavuş Ramin Orucov (99713 saylı hərbi hissə);
II yer - əsgər Fərid Yusifzadə (25031 saylı hərbi hissə);
III yer - kiçik çavuş Elçin Səmədov (16075 saylı hərbi hissə).

**80 kq. çəki dərəcəsində**

I yer - gizir Elçin Güləliyev (16075 saylı hərbi hissə);
II yer - gizir Tural Süleymanov (67987 saylı hərbi hissə);
III yer - çavuş Əli Quliyev (99713 saylı hərbi hissə).

**85 kq. çəki dərəcəsində**

I yer - çavuş İsrafil Musasoylu (99713 saylı hərbi hissə);
II yer - baş çavuş Elnur Züliyev (67987 saylı hərbi hissə);
III yer - çavuş Ceyhun Qafarov (16075 saylı hərbi hissə).

**90 kq. çəki dərəcəsində**

I yer - əsgər Müşfiq Hüseynov (16075 saylı hərbi hissə);
II yer - baş əsgər Abdulla Yumuxov (16076 saylı hərbi hissə);
III yer - kursant Şaban Hacıyev (Ali Hərbi Məktəb).

**95 kq. çəkidən yuxarı dərəcəsində**

I yer - çavuş Rafiq Təhməzov (67987 saylı hərbi hissə);
II yer - çavuş Rüfət Qəribov (99713 saylı hərbi hissə);
III yer - baş çavuş Orxan Qurbanov (16075 saylı hərbi hissə).



Komanda üzrə 67987 (24 xal) saylı hərbi hissə I yerə, 99713 (19 xal) saylı hərbi hissə II yerə və 16075 (15 xal) saylı hərbi hissə III yerə layiq görülüb.

Qeyd edək ki, qalib komanda kubokla, şəxsi birinciliyin qalibləri isə diplomla mükafatlandırılıblar.

**Mətbuat xidməti**

# ALİ HƏRBİ MƏKTƏBİN TƏDRİS TABORU PEŞƏKAR ZABİT KADRLARININ HAZIRLANMASI PROSESİNDƏ

***Qarşımızda duran əsas vəzifələrdən biri Daxili Qoşunlar üçün daha hazırlıqlı, peşəkar və savadlı zabit heyətinin hazırlanmasıdır***



Daxili Qoşunların Ali Hərbi Məktəbi ali hərbi kadrların hazırlanmasını, zabit və gizirlərin, müddətdən artıq xidmət edən hərbi qulluqçuların ixtisaslarının artırılmasını, gizirlərin hazırlanmasını və elmi-tədqiqat işlərinin aparılmasını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisəsidir. Ali Hərbi Məktəbdə mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı bakalavriat səviyyəsində aparılır. Tədrisin müasir standartlara uyğun təşkili məqsədilə bütün lazımi şərait mövcuddur. Burada qərargah, kursantların təlimi və yaşayışı üçün yeni korpuslar, xidmət və məişət təyinatlı bir sıra obyektlər, o cümlədən yeməkxana fəaliyyət göstərir. Müasir texnologiyalar, yaradılan maddi-texniki baza zabit kadrlarının hazırlanmasına olan tələblərin uğurla həyata keçirilməsinə yönəldilib. Söz yox ki, Daxili Qoşunların Ali Hərbi Məktəbinin respublikanın hərbi təhsil müəssisələri sırasında qısa müddətdə nüfuz qazanması, ildən-ilə bura qəbul olunmaq istəyən gənclərin sayının artması da uğurlu fəaliyyətin təcəssümüdür. Artıq neçə ildir ki, peşəkar, savadlı zabit kadrları hazırlayan məktəbimizdə təlim prosesi Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında əsas tədbirlərin və döyüş təliminin təşkili haqqında" Direktivin və digər normativ-hüquqi sənədlərin tələblərinə uyğun olaraq təşkil edilir. Təlim-tədris prosesində kursantlara hərbi və hüquqi biliklər verilməklə yanaşı, onların mənəvi və fiziki cəhətdən formalaşmasına, onlarda yüksək nizam-intizam və idarəçilik xüsusiyyətlərinin aşılanmasına xüsusi diqqət yetirilir.

Ali Hərbi Məktəbdə tədris dövrü ərzində keçirilən nəzəri biliklərdən əlavə, 13 həftə ərzində Daxili Qoşunların təlim mərkəzlərində praktiki məşğələlər keçirilir. Məşğələlərdə silah və texnikanın öyrənilməsi, onların tətbiqi, istismarı üsullarına yiyələnməsi, taktiki tapşırıqların həlli, sxemlərin çəkilməsi, hesablamaların aparılması, xəritələrin işlənilməsi və tərtibatına diqqət yetirilir. Praktiki təlimlər kursantlarla döyüş fəaliyyətinin təşkili, aparılması, təminatı və döyüşdə bölmələrin idarə olunması təcrübəsinin öyrənilməsi təmin edir. Sözügedən təlimlər kompleks xarakterlidir, bir qayda olaraq, çöl şəraitində keçirilir. Bu zaman kursantlar bölmə komandiri, həmçinin, təlimin məqsədinə uyğun olaraq digər vəzifələri də icra edirlər. Qeyd edək ki, zabit hazırlayan tədris taborunda keçirilməsi planlaşdırılan praktiki təlimlər Ali Hərbi Məktəbin tədris planına uyğun olaraq həyata keçirilir. Burada kursantlar, həmçinin, hərbi işin, elm və texnikanın ən yeni nailiyyətlərinə yiyələnməklə, öz bilik və bacarıqlarını təkmilləşdirirlər. Bu işdə Ali Hərbi Məktəbdə fəaliyyət göstərən pedaqoji heyətin də əməyi danılmazdır. Çünki onlar daim öz üzərilərində işləyir, biliklərinin metodiki cəhətdən artırılması, gələcəyin savadlı zabit kadrlarını hazırlamaq üçün əllərindən gələni əsirgəmirlər.

Bu günlərdə "Əsgər" qəzetinin növbəti sayı üçün yeni material hazırlamaq məqsədilə Ali Hərbi Məktəbdə olarkən kursantların təlim-tədrisi ilə daha yaxından tanış oldum. Zabit hazırlayan tədris taborunda tədris bölüyü komandirinin vəzifələrini icra edən baş leytenant Ağaseyft İbadovla kursantların hazırlığı, təlimləri barədə fikir mübadiləsi apardıq. Hər bir kursantın həyatında bölük komandirinin rolunun nədən ibarət olduğunu açıqlayan zabitimiz hərbçi peşəsinin spesifikasını onlara aşıladığını, bu sahədə daha çox pedaqoq kimi çıxış etməyin vacibliyini vurğuladı: "Bu gün bizim qarşımızda duran əsas vəzifələrdən biri qoşunlarımız üçün daha hazırlıqlı, peşəkar və savadlı zabit heyətinin hazırlanmasıdır. Xidmətimizin əsas prinsipi məhz bu olduğuna görə bölükdə xidmət edən bütün zabit heyəti səfərbər olmalıdır".

Kursantların gündəlik fəaliyyətinin təyin olunmuş gün nizamına əsasən tənzimləndiyini nəzərimizə çatdıran bölük komandiri bu sahədə hər bir kursantın daha məsuliyyətli davranmasının vacibliyini söylədi. Belə olduqda ilk günlərdən özü üçün gələcək zabit peşəsini seçən bu gənclər günümüzdə qarşımızda qoyulan tələbləri nə qədər tez mənimsəyərlərsə, gələcək karyeralarında onlar üçün xidmətin çətinlikləri o qədər də hiss olunmayacaq. Bu istiqamətdə kursantlarla aparılan fərdi tərbiyə işinin əhəmiyyəti də əvəzolunmazdır.

Gənclərdə hərbi-vətənpərvərlik əqidəsinin formalaşdırılmasında, onların Vətənə məhəbbət, xalqa sədaqət prinsipilə tərbiyələndirilməsində böyük zəhməti olan bölük komandiri və pedaqoqlara öz şərəfli xidmətlərində uğurlar arzulayır və Azərbaycan vətəndaşı olaraq onların hər birilə fəxr edirik.

**baş leytenant Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# MƏSULİYYƏT HİSSİ XİDMƏTİN ƏSASIDIR

"Əsgər" qəzetinin səhifələrində vaxtaşırı Daxili Qoşunların hərbi hissələrində xidmət edən nümunəvi qadın hərbi qulluqçuların fəaliyyətini işıqlandırırıq. Bu dəfə haqqında danışmaq istədiyimiz hərbi qulluqçumuz 16075 saylı hərbi hissədə xidmət edən gizir Nuriyyə Hüseynovadır.

O, 1992-ci il iyulun 22-də Sumqayıt şəhərində anadan olub. 1999-cu ildə Sumqayıt şəhər 28 saylı orta məktəbin 1-ci sinfinə gedib. 2010-cu ildə orta məktəbi bitirərək, Azərbaycan Dövlət İqtisad Universitetinin Kommersiya fakültəsinə qəbul olunub. Bir iqtisadçı kimi ali təhsil almasına, öz sahəsində bilgili olmasına baxmayaraq, hərbi xidmətə olan həvəs və marağı onu 2014-cü ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarına gətirir. Hazırda 16075 saylı hərbi hissənin qərargahında şəxsi heyətin uçotu üzrə məsul icraçı vəzifəsində hərbi xidmətdədir. Artıq dörd ildir ki, sıralarımızda olan gizir N.Hüseynova intizamına, nümunəvi davranışına görə kollektiv arasında böyük hörmət qazanıb.

O, şəxsi heyətin uçotuna, qeydiyyat blanklarının və sənədlərinin qorunub saxlanılmasına, sənədlərin düzgün tərtib edilməsinə nəzarət edir. Nizami hissə üzrə əmr layihəsini vaxtında hazırlayıb təqdim etmək, şəxsi heyətin uçotu barədə müəyyən olunmuş məlumatları vermək, zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının qeydiyyat dəyişikliklərini müntəzəm olaraq aidiyyəti üzrə uçot kitablarına qeyd etmək onun funksional vəzifələrinə aiddir. Həmçinin, hərbi qulluqçuların yerdəyişməsi, hərbi rütbələrin verilməsi barədə sənədlərin vaxtında hazırlanması, Baş İdarədən kadr və şəxsi heyətin uçotu üzrə daxil olmuş sənədlərin qeydiyyatını aparıb, aidiyyəti üzrə komandir və rəislərə çatdırılmasını təmin edir.



2017-ci ildə kadrlar sahəsi üzrə xidməti-döyüş fəaliyyətinin yekunlarına görə Daxili Qoşunların hərbi hissələrinin məsul icraçıları arasında fərqlənib. Xidməti tapşırıqların icrası zamanı diqqətli olmağa çalışan hərbi qulluqçumuz öz üzərində daim çalışır, xidmətə münasibətilə digərlərindən seçilir. Xidmət dövrü ərzində funksional vəzifələrini layiqincə yerinə yetirdiyinə və nümunəvi davranışına görə dəfələrlə hərbi hissə komandiri tərəfindən mükafatlandırılıb. Onun ən böyük arzusu xidmətdə irəliləmək, gələcəyin zabiti olaraq fəaliyyətini genişləndirməkdir. Biz də Mətbuat xidməti olaraq, öz növbəmizdə, hərbi qulluqçumuza uğurlar arzulayır, qarşıdakı fəaliyyətində nailiyyətlərinin davamlı olmasını diləyirik.

**baş leytenant Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR-*

### Britaniya ordusunun yeni tüfəngləri: dünyanın ən ölümcül silahları

Britaniya ordusuna yeni istifadəyə verilən tüfənglərin dünyanın ən



ölümcül silahları arasında olduğu bildirilir. Ordu.az xarici KİV-lərə istinadən xəbər verir ki, sözügedən "SA80" tüfəngləri 1987-ci ildən bəri Britaniya ordusunda istifadə olunsa da, bir neçə dəfə yenilənib. Qeyd edək ki, yeni tüfənglər, əsasən, dəqiqlik və dayanıqlıq baxımından əvvəlki versiyadan fərqlənir.

### ROKETSAN və ASELSAN Türkiyənin ilk dəniz raketlərini istehsal edəcək

Türkiyə Müdafiə Sənayesi Nazirliyi ROKETSAN-la ölkənin ilk dəniz raketlərinin kütləvi istehsalı üçün müqavilə



imzalayıb. Ordu.az xəbər verir ki, bu barədə açıqlama Türkiyə Müdafiə Sənayesi Nazirliyi tərəfindən verilib. Açıqlamada bildirilir ki, Türkiyə Müdafiə Sənayesi Nazirliyi ilə ASELSAN arasında dəniz raketləri üçün atəşi idarəetmə sistemləri və digər texnizatların istehsalı üçün razlaşma əldə olunub.

### Çin pilotsuz helikopterdən uğurlu raket atışı həyata keçirib

Çin pilotsuz, avtonom helikopterdən 2,8 mil məsafədəki hədəfi vura bilən döyüş başlığı ilə silahlanmış raketin atışını həyata keçirib. Ordu.az "Global Times"a istinadən xəbər verir ki, raketin atışı uğurla həyata keçirilib. Bildirilir ki, bu helikopter Çinin yerli aviasiya kompaniyası tərəfindən istehsal edilib. Ondan raket atışının həyata keçirilməsi isə helikopterin təkmilləşdirilməsi istiqamətində daha bir önəmli hadisədir.

AV500W adı verilən helikopter silah sistemləri də daxil, ümumilikdə, 500 kiloqramlıq yükü qaldıra bilir. Dron



helikopter 5000 metr yüksəklikdə və 105 mil/saat sürətlə hərəkət edə bilər. Onun havada qalma müddəti isə 5 saatdır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar Şurası qoşunların veteranı **ehtiyatda olan kapitan Şakir Quliyevin** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı baş gizir İsrail Eyniyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**